**UOT: 82-1.512.162**
**https://doi.org/10.59849/2311-8482.2025.1.24**

**NƏRMİN MƏMMƏDOVA***

# XIX ƏSR LƏNKƏRAN ƏDƏBİ MÜHİTİNDƏ DİNİ – FƏLSƏFİ ŞEİRLƏR

*Lənkəran ədəbi mühitində dini – fəlsəfi şeirlərin geniş yayıldığının şahidi oluruq. Dini- fəlsəfi şeirlər içərisində daha çox Kərbəla hadisələrindən bəhs olunur. Bölgənin İslam dininə bağlılığı poeziyayada yansımışdır. Demək olar ki, bütün şairlərin yaradıcılığında biz bu motivlərə rast gəlirik. Dini-fəlsəfi şeirlər içərisində sufiyana eşq də xüsusi yer tuturdu. Demək olar ki, bölgədə bütün şairlərin yaradıcılığına ilahi eşq çalarları yer almaqdadır. Lənkəran şairlərinin bir çoxu mərsiyələrinin əksəriyyətini Məhəmməd Füzuli qəzəllərinə təxmis şəklində yazdığının da şahidi oluruq. Bölgədə Aşura gününün də təmtəraqla keçirildiyini nəzərə alaraq onun poeziyadan da yan keçmədiyinin şahidi oluruq. Poeziyada da bu mərasim xüsusi olaraq geniş vurğulanır. Araşdırmalar zamanı mərsiyələrlə yanaşı dini-fəlsəfi şeirlərdə Quran ayələrindən bəhrələnmək, Allaha, Peyğəmbərə olan dərin sevgi hissləri də əks olunduğunu müşahidə etmək olur*

*Məqalədə Lənkəran ədəbi mühitində dini- fəlsəfi şeirlərin geniş yayılmasından bəhs olunur. Tədqiqat zamanı müqayisəli- tarixi metoddan istifadə edilmişdir.*

**Açar sözlər:** *Lənkəran ədəbi mühiti, XIX əsr, İslam dini, mərsiyə, şair*

## Giriş

XIX Əsr Lənkəran ədəbi mühitində Qurani –Kərimə, İslam dininə bağlılıq ədiblərin yaradıcılığında daha çox müşahidə olunur. Əminliklə vurğulamaq olar ki, Lənkəran ədəbi mühitində bu bağlılıq daha çox sezilir. Lənkəran ədəbi mühitində dini – fəlsəfi şeirlər içərisində əsas mövzu mərsiyələrdən ibarətdir. Əsasən Kərbəla hadisələrini əhatə edən mərsiyələr demək olar ki, əksər şairlərin yaradıcılığında yer alır.

## Əsas məzmun

Usta Məhəmmədhəsən Nəccarın mərsiyə-mürəbbe şəklində yazılan şeirində Allahın birliyinə inam öz əksini tapmışdır:

*Haq ədəmdən gətirib aləmi-imkanə bizi,*
*Əmr edib mərifətu taətu imanə bizi.*

*Bisəbəb xəlq eləmib xəlqi o Xəllaqi- cəhan,*
*Səbəbi xəlqini eylibdu kəlamında bəyan*
*Ki, gərək səcdə edə xaliqinə ins ilə can,*
*Qoyubdur gərdəni, təslim bu fərmanə bizi.* [5, s.67]

Maraqlı məqamlardan biri də odur ki, bu növ şeirlərdə şairlər, yeri gəldikcə pul və mal dövlət hərislərinə müraciət edib onları bəd əməllərindən, pis niyyətlərindən çəkindirməyə çalışırdılar:

*Cibdə çeş şahı gər artıq ola tuğyan edərik,*
*Bir məratibə əgər mümkün ola qan edərik,*
*Mali-qeyri götürüb xərc edib ehsan edərik,*
*Cəm edib nəfsi-dəni misli-məgəs qanə bizi.* [5, s.67]

Şair avam xalqı hiyləgərliklə tovlamağa cəhd göstərən, hətta şairin gözündə şeytanı da aldada bilən hoqqabazlara bəd əməllərindən əl çəkməyi tövsiyə edir. Ən maraqlısı onda ibarətdir ki, bütün bu pis sifətləri şair birinci şəxsin cəmində göstərməyə çalışır:

*Əynimiz tazə libasu özümüz vəsvasi,*
*Tovluruq bir neçə kəlməylə əvamünnası,*
*Məkr təzvir ilə həm aldadırıq xənnası,*
*Verü nisbət bu sifət zümreyi –şeytanə bizi.* [5, s.67]

Lənkəran şairlərinin bir çoxu mərsiyələrinin əksəriyyətini Məhəmməd Füzuli qəzəllərinə təxmis

şəklində yazırdı. İlahi eşqi İmam Hüseyn müsibəti ilə birləşdirməyə çalışan şairlər buna çox gözə nail olmağı bacarırdılar. Məsələn Füzulinin aşağıdakı beytinə:

*Aşiqi –sadiq gərək canın verə cananına,*
*Qoymasın aşıq adın hər kimsə qıymaz canına.*

Şair Mirzə İsa Xəyali mərsiyəsi üçün vagir seçərək onu Kərbəla hadisələri ilə əlaqələndirərək çox gözəl nəzirə yazmışdır:

*Adını aşiq qoyan, can verməyən sadiq deyil,*
*Eşqi- kamil malu canu şövkətə şayiq deyil,*
*Vamiqu Fərhadu Məcnun, cani – mən, aşiq deyil,*
*Aşiq istərsən əgər, get Kərbəla meydanına.* [4, s.105]

Bölgədə Aşura gününün təmtəraqla keçirildiyini nəzərə alaraq onun poeziyadan da yan keçmədiyinin şahidi oluruq. Mirzə İsmayıl Qasirin beytində olduğu kimi:

*Çahi-din basdı qədəm meydana Aşura günü,*
*Cəng edə küffar ilən mərdanə Aşura günü.* [4, s.106]

Və yaxud şairin Aşura günü ilə bağlı yazdığı digər şeiri məzmun etibarı ilə daha qəmli lövhələrdən ibarətdir:

*Ruzi-Aşuradu, aləm əhli qan ağlar bu gün,*
*Kərbəla əhvalına yeksər cahan ağlar bu gün.* [4, s.107]

Şair bu mərsiyədə İmama təziyə saxlayanlara həminki günün necə ağır matəm olduğunu bədii müqayisələrlə çatdırmağa çalışır. O, İmam tərəfi ilə qarşı duran düşməni nurun zülmətlə üz-üzə durması kimi təsvir edir. Həminki gün mələklərin hurilərlə birlikdə fəryad qopardığı , Həzrəti İsanın belə dördüncü göydə bu hala nalə etdiyi, bir sözlə bu duruma yerin – göyün ağladığı bədii lövhələrlə əksini tapmışdır.

Bölgədə yazılan mərsiyə mövzulu şeirlərdə adətən İmam Hüseyn məzlum kimi qələmə alınır. Əlbəttə ki, Kərbəla müsibətində Yezidin zülmü, İmamın özünün və övladlarının başına gətirilən əzab - əziyyət mövzunu bu şəkildə qələmə almayı tələb edir. Lakin bəzi məqamlarda imamı cəngavər kimi qələmə verən şairlər onun qəti, qorxmaz, mübariz olduğunu da göstərməyə çalışırlar . Xüsusilə M.İ.Qasirin aşağıdakı misralarında biz bunu açıq aşkar müşahidə edə bilirik:

*Nizəsinə özünü meydanda eylib üstüvar,*
*Bir rəcəz ağaz edib ol dəm o Şiri – namidar,*
*İbni – Sədə söylədi: ey bihəyavü bəd şüar,*
*Hər iki aləmdə xar etsin səni pərvərdigar,*
*Xanimanun eyləsin viranə Aşura günü***.** [4, s.107]

Davamında isə İmamın bu rəcəzindən sonra düşmənin məkr və hiylə ilə onu çağırdığını, övladını çox ağır zülm ilə şəhid etdiklərinin şahidi oluruq. Bu mərsiyədə İmamın özünün şəhadətindən söhbət açılmasa da Son bəndində Peyğəmbər əqrəbasının müsibətinə ağladığını söyləyərək özünü onların şəminə pərvanə olmağı arzuladığını görürük.

Mərsiyələrlə yanaşı dini-fəlsəfi şeirlərdə Quran ayələrindən bəhrələnmək, Allaha, Peyğəmbərə olan dərin sevgi hissləri də əks olunmuşdur. Xüsusilə bir çox şeirlərdə Allaha yalvarış, onun böyüklüyü qarşısında baş əyərək qurtuluşa çağırış məqamları da yer almaqdadır. Mirzə Əhməd Kəminin beytində oduğu kimi:

*Ya Rəbb, dəxilik biz hamı şahi-şühədaya,*
*Hifz et bizi, əfv eyləginən ali-əbaya.* [4, s.111]

Dini-fəlsəfi şeirlər içərisində sufiyana eşq də xüsusi yer tuturdu. Demək olar ki, bölgədə bütün şairlərin yaradıcılığına ilahi eşq çalarları yer almaqdadır. Xüsusilə Mirzə İsmayıl Qasir yaradıcılığında biz bunu daha çox müşahidə edə bilirik. Onun qəzəllərinin əksəriyyətində sufiyanə eşq duyulmaqdadır. "Ey olan hər iki aləmdə..." misrası ilə başlayan qəzəlində isə bu eşq daha geniş əksini tapmışdır:

*Ey olan hər iki aləmdə yari- əziz,*
*Ey vuran firqəti bu sinəmə bir xəncəri-tiz ...*

*Ey mənə tənə vuran kimsənə, aram oturan,*
*Deməyin məst olub Qasiri- biçarəyə siz.* [1, s.58]

Lənkəran şairlərinin əksəriyyətinin yaradıcılığında sufiyanə şeirlər Füzuli ənənələrinin davamı olsa da bir sıra xüsusiyyətlərinə görə özünəməxsus cəhətlərə malikdir desək heç də yanılmarıq. Belə ki, çox zaman şeirlərdə aşiq divanə olub çöllərə düşmək istəmir, bəzi məqamlarda insanlar qarşısına ləyaqətli biri kimi çıxmaq istəyir. Ancaq bütün bunlara baxmayaraq əminliklə vurğulamaq lazımdır ki, bölgə ədəbi mühitində biz ilahi eşi məhz Məhəmməd Füzuli ənənələrinin davamı kimi müşahidə edirik. Xüsusilə vurğulamaq lazımdır ki, bu ənənə təkcə ilahi eşqdə deyil, digər məqamlarda da özünün büruzə verir. Birmənalı şəkildə qeyd etmək lazımdır ki, XIX əsr Lənkəran ədəbi mühitində qəzəl janrında yazılan əksər şeirlərdə biz bunun şahidi oluruq. Hətta bölgədə adi məhəbbət motivli şeirlərdə belə biz bu ənənənin şahidi oluruq. Eşqin demək olar ki adi çalarında belə yenə tanrıdan gələn bir varlıq kimi ilahiləşdiyinin şahidi oluruq. Bölgə ədəbi mühitində öz dəsti-xətti ilə seçilən Mirzə İsa Xəyalinin şeirində olduğu kimi:

*Aşiqin bəxti gərək kəstəvi-ziynət geyinə,*
*Xam imiş eşqdə Məcnun özün üryan elədi.*
*Bu haman eşqdu Peyğəmbərə həm caiz olub,*
*Atanı qırx il oğul firqəti giryan elədi.*
*Oldu şəhri- üşşaq, fərəhbəxşi-nigar,*
*Bülbülün nalələri* qönçəni xəndan elədi.
*Basdı Afaqı yenə rayiheyi – mişgi-əbir,*
*Deyəsən dilbərimiz zülfünü əfşan elədi.*
*Qayəti – cazibeyi –eşq Züleyxaya görə*
*Neçə il Yusifi, həsrətkeşi- Kənan eylədi*
*Gər budur eşqi-zəbərdəsi, nə Mahmud Ayaz*
*Ey bəsa, şahi gedayi- dəri canan elədi.*
*Eşqdir, eşq Xəyali ki, Xəlilüllaha!*
*Döndərib atəşi, nəmrudu Gülüstan elədi!* [4, s.143]

Klassik ədəbiyyatımızda rast gəldiyimiz bütün aşiqlərin adı bu misralarda sadalanaraq aşiqin və eşqin məziyyəti ilahidən gələn məhəbbət olduğu aydınlaşır. Adi məhəbbət şeirlərini belə sufiyanə tərzdə yazan Füzuli davamçıları bölgə ədəbi mühitində xüsusilə seçilir. Ən çox sufiyanə şeirlərdə rast gəlinən məqam isə aqil olmayan axmaq aşiqin vüsala çatmasının əbəs olmasıdır.

**Nəticə**

Xüsusilə qeyd etmək lazımdır ki, bölgə ədəbi mühitində hal –hazırda yaşayıb yaradan şairlərin yaradıcılığında da biz eyni motivləri müşahidə edirik . Demək olar ki, Füzuli ənənələrindən qaynaqlanan məqamlar müasir dövr Lənkəran ədəbi mühitində də davam etməkdədir. İstər klassik şeir şəkillərində, istərsə də doğma heca vəznində yazılan dini – fəlsəfi şeirlər bölgənin poetik ənənələrinə sadiqliyini sübuta yetirir. Mirhaşım Talışlının, Məsudi Dövranın, Aliyə Seyidqızının, Əhməd Haqsevərin, Ağamir Cavadın və bir çoxlarının yaradıcılığında biz eyni halı müşahidə edirik. Bölgənin dini inancı nöqteyi nəzərindən eyni ilə XIX əsrdə olduğu kimi İmam Hüseyn müsibəti, Kərbəla hadisələri, Aşura günü dini- fəlsəfi şeir baxımından hələ də öz aktuallığını qoruyub saxlayır.

**ƏDƏBİYYAT**

1. Axundzadə Mirzə İsmayıl Qasir 210 / toplayan İ.S.Axundov; tədqiq ed. A.M.Rəhimova ; ərəb əlifba. çev. nəşrə haz. T.N.Nurəliyeva, P.Ə.Kərimov; farsdilli şeir. tərc. ed. M.S.M.Sultanov; tərt. ed. çapa haz. T.İ.Axundov – Bakı: Şərq-Qərb nəşriyyatı, – 2015. – 506 s.
2. XIX əsr Azərbaycan ədəbiyyatı müntəxəbatı / tər. ed. R. Həsənova, T.Əhmədov – Bakı: Bakı Dövlət Universiteti nəşriyyatı, – 1992. – 336 s.
3. XIX əsrin ikinci yarısında Azərbaycan tarixşünaslığı / tər. ed. Ə.Hüseyzadə – Bakı: Azərb. EA. nəşriyyatı, – 1967. – 455 s.
4. Talışlı, M, Seçilmiş əsərlər / tər. ed. E.Əhədov, İ.Cəfərov – Bakı: Adiloğlu, – 2007. – c.1. – 392 s.
5. Usta Məhəmmədhəsən Nəccar // – Bakı: Yasəmən (Mərsiyələr məcmuəsi ) məcmuəsi, – 1993. – s.66-68.

***AMEA –nın Folklor İnstitutunun elmlər doktoru üzrə***
***dissertantı, filologiya üzrə fəlsəfə doktoru Nərmin Məmmədova***
***Lənkəran ş. Füzuli küç.9***

**Narmin Mammadova**

## RELİGİOUS-PHİLOSOPHİCAL POEMS İN THE LİTERARY ENVİRONMENT OF 19TH CENTURY LANKARAN

The literary environment of Lankaran in the 19th century witnessed the widespread dissemination of religious-philosophical poems. These works often revolved around the events of Karbala, reflecting the region’s strong connection to Islam. Such themes were present in the poetry of almost every poet from the area. Among religious-philosophical poetry, Sufi love held a special place, with divine love appearing as a recurring element in their works.Many poets of Lankaran composed elegies (marsiyahs), often written as “takhmis” (a poetic form adding lines to pre-existing ghazals) inspired by the ghazals of Muhammad Fuzuli. The significance of Ashura and its ceremonial grandeur were also reflected in the region’s poetry, with these events receiving prominent mention. Research indicates that, alongside elegies, religious-philosophical poems drew inspiration from Quranic verses, expressing profound love for Allah and the Prophet. This deep spiritual connection was a defining characteristic of the literary creations of Lankaran’s poets. The article explores the prevalence of religious-philosophical poetry in Lankaran’s literary environment. The study employs a comparative-historical methodology.

**Keywords**: *Lankaran literary environment, 19th century, Islam, elegy, poet*

**Нармин Мамедова**

## РЕЛИГИОЗНО-ФИЛОСОФСКАЯ ПОЭЗИЯ В ЛИТЕРАТУРНОЙ СРЕДЕ ЛЕНКОРАНИ XIX ВЕКА

В литературной среде Ленкорани XIX века наблюдается широкое распространение религиозно-философских стихов. Среди этих произведений особенно часто встречаются темы, связанные с событиями Кербелы. Приверженность региона исламу нашла отражение и в поэзии. Практически у всех поэтов можно встретить подобные мотивы. В религиозно-философской поэзии особое место занимала суфийская любовь, и элементы божественной любви присутствовали почти во всех произведениях местных поэтов. Многие из них писали свои марсийи (траурные стихи) в форме тахмиса, дополняя газели Мухаммеда Физули.

Учитывая, что день Ашуры в регионе отмечался с особой торжественностью, это

событие также нашло широкое отражение в поэзии. В стихах этому обряду уделено особое внимание. Исследования показывают, что, помимо марсий, религиозно-философские стихи часто черпали вдохновение из аятов Корана, выражая глубокую любовь к Аллаху и Пророку.В статье рассматривается распространение религиозно-философской поэзии в литературной среде Ленкорани. В ходе исследования использован сравнительно-исторический метод.

**Ключевые слова:** *литературная среда Ленкорани, XIX век, ислам, марсийя, поэт.*

*Akademik İsa Həbibbəyli tərəfindən təqdim edilmişdir*

**İlk daxilolma tarixi: 10.01.2025**
**Son daxilolma tarixi:11.02.2025**